# *Ömrün şeir ilə keçən illəri*






Dekabrın 21-də Goranboy rayon Mədəniyyət Mərkəzində tanınmış şair Ələsgər Əlioğlunun 70 illik yübileyilə bağlı tədbir keçirildi.

Goranboy rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə keçirilən tədbirdə rayon başçısı Məhərrəm Quliyev çıxış edərək bildirdi ki, Azərbaycan ədəbiyyatı və mədəniyyəti həmişə Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı ilə əhatə olunub. Bu proses hazırda ölkəmizin başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Sənət adamlarına dövlət səviyyəsində xüsusi diqqət və qayğı göstərilir. Çünki sənət adamları cəmiyyətə ilk növbədə vətəndaşlıq mövqeyi, dövlətə, vətənə sədaqət hissi aşılayırlar. Belə sənətkarlardan biri də Ələsgər Əlioğludur. Onun yaradıcılığı vətənə, milli adət-ənənələrə, tariximizə, ata-anaya, təbiətə məhəbbət qaynağıdır. Onun poeziya örnəkləri orta məktəb dərsliklərində yer alıb. Yaradıcılığı haqqında Xalq şairi Bəxtiyar Vahabzadə, akademik Bəkir Nəbiyev, ədəbiyyatşünas alim Vaqif Yusifli, görkəmli yazıçılar Çingiz Hüseynov, Qərib Mehdi və başqaları yüksək fikirlər söyləyiblər. Əsərləri müxtəlif xalqların dilinə çevrilib.

Tədbirdə AYB-nin Aran bölməsinin sədri, "Ədəbiyyat qəzeti"nin şöbə redaktoru Sərvaz Hüseynoğlu, AYB-nin Gəncə bölməsinin sədri, Əməkdar mədəniyyət işçisi Xəzangül, görkəmli yazıçı, Əməkdar jurnalist Qərib Mehdi, tanınmış şairlərdən Aləmzər Əlizadə, İqbal İsmayılov, Oqtay Abdulla və başqaları Ələsgər Əlioğlunun çoxşaxəli yaradıcılığının məziyyətlərindən söz açdılar, yubilyarın şeir və hekayələri əsasında hazırlanmış ədəbi-bədii kompozisiya səsləndirildi, şairin yaradıcılıq uğurlarını ifadə edən sərgi ziyarət olundu.

Sonda Ələsgər Əlioğlu yaradıcılığına yüksək dəyər verən Goranboy İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə, qələm dostlarına və tədbir iştirakçılarına təşəkkürünü bildirdi, yeni şeirlərini oxudu.

*Aynur HƏTƏMOVA*